Tədbiri giriş sözü ilə açan maliyyə naziri Samir Şərifov Maliyyə Nazirliyi və Dünya Bankı tərəfindən birgə həyata keçirilən “Korporativ və Büdcə Sektorlarında Hesabatlılıq Layihəsi” çərçivəsində “Büdcədən maliyyələşən təşkilatlar üçün Maliyyə və Mühasibatlıq Hesabatları” avtomatlaşdırılmış informasiya sisteminin yaradılması və tətbiqi ilə bağlı geniş məlumat verib. S.Şərifov qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində əldə olunan iqtisadi yüksəlişə paralel olaraq respublikamızda mühasibat uçotunun təkmilləşdirilməsi ilə bağlı da mühüm addımlar atılıb. Prioritet istiqamətlərdən biri kimi, qısa zaman ərzində ölkədə Beynəlxalq Maliyyə Hesabatları Standartlarına keçidə nail olunaraq, zəruri hüquqi-normativ baza yaradılıb və mühasibat uçotu subyektlərinin maliyyə hesabatlarının beynəlxalq standartlar əsasında hazırlanaraq təqdim olunması təşkil olunub. Üçillik maliyyə hesabatlarının qəbulunu və ümumilikdə prosesi təhlil edən S.Şərifov bu sahədə yeni təxirəsalınmaz tədbirlərin həyata keçirilməsinin vacibliyini diqqətə çatdırıb: “Mühasibat uçotu üzrə beynəlxalq və milli standartlar əsasında formalaşan maliyyə hesabatlarının hazırlanması, qəbul olunması, təhlili proseslərinin avtomatlaşdırılması və hesabatlar üzrə vahid məlumat bazasının hazırlanması zərurəti yaranmışdı”.

Maliyyə naziri onu da qeyd edib ki, “Büdcədən maliyyələşən təşkilatlar üçün Maliyyə və Mühasibatlıq Hesabatları” avtomatlaşdırılmış informasiya sistemi hazırda Maliyyə Nazirliyində və 4 pilot universitetdə - Bakı Dövlət Universiteti, Azərbaycan Texniki Universiteti, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası və Xəzər Universitetində tətbiq olunub və yaxın gələcəkdə bu sistemin daha geniş yayılması nəzərdə tutulur. S.Şərifov avtomatlaşdırılmış informasiya sisteminin tətbiqinin birinci mərhələsində 35 ali təhsil müəssisəsini və 4 nazirliyi əhatə edəcəyini bildirib.

Tədbirdə təhsil naziri Misir Mərdanov çıxış edərək bildirib ki, “Büdcədən maliyyələşən təşkilatlar üçün Maliyyə və Mühasibatlıq Hesabatları” avtomatlaşdırılmış informasiya sisteminin tətbiqinə başlanılması ölkə Prezidenti cənab İlham Əliyevin elektron xidmətlərin genişləndirilməsi, “Elektron Hökumət”in qurulması ilə bağlı verdiyi fərman, sərəncam və tapşırıqların icrası istiqamətində atılan addımlardan biri kimi qiymətləndirilməlidir. M.Mərdanov, həmçinin yeni sistemin tətbiqinin əhəmiyyətindən, ali təhsilin maliyyələşdirilməsi sahəsində əldə olunan uğurlardan, eləcə də yeni sistemin tətbiqi ilə əlaqədar ali təhsil müəssisələrinin qarşısında duran vəzifələrdən söz açıb.

Daha sonra tədbirdə yeni sistem tətbiq edilən pilot ali təhsil müəssisələrinin - Bakı Dövlət Universitetinin rektoru Abel Məhərrəmov, Azərbaycan Texniki Universitetinin rektoru Havar Məmmədov, Xəzər Universitetinin təsisçisi Hamlet İsaxanlı və digərləri öz çıxışlarında ölkədə müasir mühasibat uçotu sisteminin yaradılması və tətbiqinin əhəmiyyətini vurğulayaraq əldə olunan nəticələr barədə məlumat veriblər. Sistemin tətbiqinin hər bir təşkilat üçün operativ analiz imkanı yaratdığını vurğulayan natiqlər qeyd ediblər ki, müəssisədə mühasibat uçotunun beynəlxalq və milli standartlar əsasında avtomatlaşdırılması, həmçinin hazırlanan maliyyə hesabatlarının da avtomatik rejimdə formalaşmasını və vaxtında təqdim olunmasını təmin edir.

Sistemin funksional və texniki təfərrüatları ilə bağlı məlumat verən icraçı şirkət - “Sinam” şirkətinin rəhbəri Elçin Əliyev bildirib ki, proqram təminatının funksionallığı «Müəssisə resurslarının idarə edilməsi sistemi» prinsip üzərində qurulub və müəssisənin bütün növ maliyyə-təsərrüfat fəaliyyətinin avtomatlaşdırılmasına və idarə edilməsinə imkan verir. E.Əliyev sistemdə «Anbar uçotu», «Əsas vəsaitlərin uçotu», «Bank və xəzinə əməliyyatları», «Əmək haqqı», «Maliyyə hesabatları» və «Kadrların uçotu» modullarının mövcud olduğunu nəzərə çatdırıb.

Sonra tədbirdə avtomatlaşdırılmış informasiya sisteminin tətbiqinin müsbət nəticələri ətrafında fikir mübadiləsi aparılıb.